# ŞUŞA RAYONU XÜSUSİ QORUNAN TƏBİƏT ƏRAZİSİ KİMİ: DAŞALTI DÖVLƏT TƏBİƏT YASAQLIĞI

**Yusif Mahmudov**

*Qobustan rayonu İ.İbrahimov adına Dərəkənd kənd tam orta məktəbi, diriliqurbani@gmail.com*

Şuşa və Əsgəran rayonlarının ərazilərində nadir təbiət komplekslərinin qorunması məqsədilə yaradılmış Daşaltı Dövlət Təbiət Yasaqlığı (DTY) əsasən "Topxana" adlanan sahədəki dövlət meşə fondunun, o dövrdə mövcud olmuş kolxoz ərazilərinin və Şuşa şəhər sovetinin torpaq fondunun hesabına təşkil edilmişdi. Sahəsi 450 ha olub, respublika ərazisinin 0,005%-nə, həmin dövrdə yaradılmış yasaqlıqların ümumi ərazisinin 0,19%-nə bərabər idi.

Yasaqlığın ərazisi xüsusi relyef xüsusiyyətlərinə malikdir və səthi dağlıqdır. Ərazidə əsasən Yura və Təbaşir çöküntüləri yayılıb. Məşhur Turşsu və Şırlan mineral bulaqları, həmçinin Zarıslı və Xəlfəli çayları da bu ərazidədir. Burada əsasən qonur dağ-meşə və qaramtıl dağ-çəmən torpaqları üstünlük təşkil edir.

Daşaltı DTY-nin ərazisində qışı quraq keçən mülayim isti iqlim tipi hökm sürür. Radiasiyanın illik miqdarı 128, radiasya balansının illik miqdarı isə 40 kkal/sm$^2$-dir. Havanın orta temperaturu 8,4$^o$C, mütləq minimum və mütləq maksimum temperatur amplitudu isə 54$^o$C-dir. İllik yağıntının (700 mm) mümkün buxarlanmadan (600 mm) çox olması rütubətlənmə əmsalının 1-dən yüksək olmasına imkan verir. Qışda yasaqlığın yerləşdiyi ərazidə iki aya yaxın qarlı günlər olur. Noyabrın 1-dən aprelin 20-nə kimi şaxtalı günlərə təsadüf edilir. 10$^o$C-dən yuxarı temperaturun illik miqdarı 2600$^o$C-yə yaxındır. Yasaqlıq Qarqar çayının hövzəsində yerləşir. Çayların maksimum suaxıtma dövrü aprel-iyun aylarında baş verir və onların qidalanmasının yarısı yağış, yarısı isə qrunt və qar suları hesabınadır.

Yasaqlıq biomüxtəliflik cəhətdən çox zəngindir, onun meşə, kol və ot bitkiləri təbii muzeyi xatırladır. Meşələrdə Şərq fıstığı (Fagus orienfalis), iberiya palıdı (Quercus iberica) və Qafqaz vələsi (Carpinus caucasica) üstünlük təşkil edir. Dəniz səviyyəsindən 1160-1210 m yüksəklikdə, Çirişli dağının şimal hissəsindəki meşəlikdə bir-birindən təxminən 100 m aralı məsafədə 30-a yaxın şabalıd ağacı (Castenea sativa) bitir və onlar palıd-vələs meşəliyinin tərkibinə daxil olur. Meşə altında müxtəlif kol növləri – fındıq (Corylus avellana), murdarça (Rhamnus sp.), alça (Prunus divaricata), göyəm (Prunus spinosa), gərməşov (Euonymus sp.), yemişan (Crataegus sp.), əzgil (Mespilus germanika), itburnu (Rosa sp.) və s. bitir. Meşələrdə həmçinin vələs (Carpinus sp.), ağcaqayın (Acer sp.), gilas (Cerasus avium), göyrüş (Fraxinus sp.), palıd (Quercus sp.), cökə (Tilia), zoğal (Cornus mas L.), alma (Malus P.Mill), armud (Pyrus pomaceous) kimi ağac və kol bitkilərinin növləri geniş yayılıb. Ümumilikdə ərazi palıd-vələs meşələri və meşənin yerində əmələ gəlmiş kollu və seyrək meşəli çəmən bitkiləri kompleksindən ibarətdir. Bir sözlə, buradakı yaşıl örtük dərman, endemik və nadir bitkilərlə zəngindir.

Yasaqlığın faunası da növmüxtəlifliyi cəhətdən seçilir, lakin daim antropogen təsirlərə məruz qaldığından keçmiş heyvanlar aləmi xeyli azalmışdır. Bununla bərabər, yasaqlıqda məməlilərdən çöl donuzu (Sus scrofa), dələ (Martes Pinel), dovşan (Lepus Linnaeus), canavar (Canus lupus), qonur ayı (Ursus arktos), Avropa cüyürü (Capreolus capreolus), porsuq (Meles meles), çölpişiyi (Felis silvestris), vaşaq (Lunx lunx), çaqqal (Canis aureus), adi tülkü (Vulpes vulpes), adi kirpi (Erinaceus concolor), tirəndaz (Hystrix indica), quşlardan turac (Francolinus francolinus), boz kəklik (Perdix perdix), bozqır qartalı (Aquilla nipalensis), bozqır muymulu qızılquş (Falco naumanni), leşcil ağqartal (Neophron percnopterus), ağbaş kərkəs (Gyps fulfus), arıquşaoxşar bığlıca (Panurus biarmicus) kimi heyvan növləri məskunlaşıb (Məmmədov, Yusifov və b., 2011). Bu cür zəngin təbii sərvəti olan ərazi təəssüf ki, layiqncə qiymətləndirilməmiş və lazımi səviyyədə qorunmamışdır. 30 ilə yaxın müddətdə işğal səbəbindən burada hər hansı monitorinqin aparılması, təbii sərvətlərdən

səmərəli istifadə olunması və onun mühafizəsi mümkün olmamışdır. Xüsusi olaraq qeyd etmək lazımdır ki, ermənilərin amansız ekoloji terror fəaliyyəti nəticəsində 4 dövlət təbiət yasaqlığı (Daşaltı DTY, Laçın DTY, Qubadlı DTY, Arazboyu DTY) və 2 dövlət təbiət qoruğu (Bəsitçay DTQ və Qaragöl DTQ) böyük ziyan görüb.

Azərbaycanın təbii komplekslərinə dəyən zərər çox ciddidir və onun yaralarını sağaltmaq üçün uzun illər lazım gələck. Bunu xüsusi qorunan ərazilərimiz haqqında da demək olar. Şuşa şəhərinin ətrafının təbiətini kompleks və geniş ərazidə, yalnız yasaqlıq rejimi ilə deyil, qoruq rejimi ilə də qorumağa ciddi ehtiyac vardır (Əliyev, Həsənov, 1993). Fikrimizcə, şəhər və onun ətrafında yerləşən tarixi abidələrin mühafizəsi bu gün daha akualdır. Şuşa şəhəri və onun ətraf ərazilərinin balneoloji iqlimi, füsunkar gözəlliyə malik olması, səfalı təbiət kompleksi yalnız Şuşadan deyil, onun ətraf ərazilərindən də sanatoriya-kurort kimi geniş istifadəyə imkan verir. Akademik H.Ə.Əliyev və X.H.Həsənova (1993) görə, Daşaltı DTY-nın, Şuşa tarixi qoruğunun və burada mövcud olmuş sanatoriyaların bazası əsasında Murovdağ Milli Parkının Şuşa sahəsini təşkil etmək əsas tədbirlərdən biri olmalıdır. Bu, ərazinin təbiət kompleksini və tarixi obyektlərini qorumağa, rekreasiya və turizmi genişləndirməyə, yerli təbii sərvətlərdən səmərəli istifadəyə imkan verər.

Hələ işğaldan əvvəl qorunması vacib hesab olunan nadir və nəsli kəsilməkdə olan növlərin mühafizəsi məqsədilə onların yaşadıqları ərazinin dövlət əhəmiyyətli qoruq və yasaqlıqlara çevrilməsi nəzərdə tutulmuşdu. Bu, yalnız Şuşa rayon ərazisini əhatə edən təbii komplekslərlə deyil, həmçinin Cəbrayıl və Kəlbəcər rayonları ilə də bağlı idi. Belə ki, xarabalıq kələzini xilas etmək üçün Cəbrayıl rayonunun Şükürbəyli kəndinin ərazisini yasaqlıq elan etmək, Tərtər çayı hövzəsindəki təbiət kompleksini, o cümlədən adı Qırmızı kitablara daxil edilmiş bezoar (qaya) keçisi, boz ayı, ular və s.-ni qorumaq məqsədilə Kəlbəcər rayonunda 7 min ha ərazidə Tutqun Dövlət Təbiət Qoruğu yaratmaq nəzərdə tutulurdu. Təəssüf ki, həmin ərazilərin ermənilər tərəfindən işğalı buna imkan vermədi (Mahmudov, 2017). Hazırda bu işlərin görülməsi üçün geniş imkanlar yaranıb. Ərazi həmçinin ekoturizmin inkişaf etdirlməsi baxımından çox əlverişlidir. Bu həm də ölkəmizin təbiəti ilə bağlı ekoloji maarifçilk üçün yaxşı fürsət deməkdir.